

*ZAKİR BAYRAMLI,*
*AYB VƏ AJB-NİN ÜZVÜ,*
*PREZİDENT TƏQAÜDÇÜSÜ*

# RÜBAİLƏR

**1**
Deyirlər bu dünya düzələn deyil,
Durmadan fırlanır, düz gələn deyil.
Üzmə ürəyini, narahat olma,
Qopub məhvərindən üzülən deyil.

**2**
Ağ bulud aylanır başımın üstdə,
Alnım qırış salır qaşımın üstdə.
Suruşdum;- bu halın nədir yozumu?
Dedilər;- yaş gəlir yaşımın üstdə.

**3**
Boylandım həsrətlə dağ oylaqlara,
Qayıtmaq istədim ötən çağlara.
Qaldım yamaclarda əsdi dizlərim,
Yaş məni qoymadı qalxım dağlara.

**4**
Bilirəm sevilmək həsrətindəsən,
Elə sən də mənim xislətimdəsən.
Münəccim olardım, əgər bilsəydim,
Hansı bir gözəlin qismətindəsən.

**5**
Çalışma dünyanı boşaltmaq üçün,
Öyrətmə əlini daş atmaq üçün.
Çalış izin qalan dünyanı yarat,
Özünü əbədi yaşatmaq üçün.

**6**
Yol getmə hər səni mədh eləyənlə,
Örtüb nöqsanını pərdələyənlə.
Dost bilib aldanma,ziyan görərsən,
Dostluq et eybini üzə deyənlə.

**7**
Saz çalıb- söz qoşmaq ozanlarda var,
Sözü nəzmə çəkib yazanlar da var.
Yol getsən görərsən, aralarında,
Yolu yoza-yoza azanlar da var.

**8**
Ötüşmə sağımdan, nə də solumdan,
Gen dur ayağımdan,çəkmə qolumdan.
Hələ çatmamışam neçə arzuma,
Qaytara bilməzsən məni yolumdan.

**9**
Könül, uçub qonma xar olan yerə,
Dəysin qanadların nar olan yerə.
Məst olmaq istərəm müşki-ətrindən,
Apar məramımı yar olan yerə.

**10**
Elәmә demişdim,edirsən yenə,
Təzəcə gəlmişdin, gedirsən yenə.
Eybi yox, keçərəm günahlarından,
Özünü qaytarıb gətirsən mənə.

**11**
Sözümə can dedin, canım odlandı,
Şəkərim söylədin, ağzım dadlandı.
O qədər sehrinə düşdüm sözlərin,
Məsti- xumar oldum, ağlım aldandı.

**12**
Gözəldir meşəli, çeşməli dağlar,
Qalxar içim-içim çağlar bulağlar.
Üzün xəzəl örtər tənha qalanda,
Küsüb için-için ağlar bulağlar.

**13**
Bir ürkək ceyrana rast oldum dağda,
Durmuşdu qarşımda qaçar ayaqda.
Elə gözəl idi, yol verdim getsin,
Kimsə ovlamasın onu ovlağda.

**14**
İlin yaz fəslidir, gəl gedək kəndə,
Gülsün bənövşələr, düşməsin bəndə.
Lalələr, nərgizlər bizləri gözlər,
Qalxaq dağ döşünə, gəzək çəməndə.

**15**
Sən elə gözəlsən mənim gözümdə,
Görmək istəyirəm səni özümdə.
Durub vəsf eləsəm bu gözəlliyi,
Gözün məndə olsun, fikrin sözümdə.

**16**
Bilsən vətənsizlik necə ağırdır,
Vətənsiz olanlar gücsüz, fağırdır.
Qoruyub saxlayaq, əldən verməyək,
Vətən bizim üçün yoldur, cığırdır.

**17**
Yaşamaq istədim gəzdim hər yanı,
Ələk-vələk etdim bütün dünyanı.
Tükəndi taqətim, büküldü belim,
Tapmadım özümdə o sağlam canı.

**18**
Nə çoxdur dünyadan giley edənlər,
Yarımçıq ömürlə nakam gedənlər.
Yəni doğrudanmı ağıllıdırlar,
-Dünya beş gün deyib kef eləyənlər?

**19**
Becərdim könlümü, güllər bitirdim,
Yarı gül bağıma qonaq gətirdim.
İstədim doyunca alım ətrini,
Qarışdı güllərə, tez-tez itirdim.

**20**
Yarımın gözəli ”İran”da qaldı,
Yarımın gözləri ”Turan”da qaldı.
Çaşıb qalacaqdım yol ayrıcında,
”Yarım” nə yaxşı ki, ”Arran”da qaldı.

**21**
Yenə axşam oldu, hava qaraldı,
Yarı gözləməkdən səbrim daraldı.
Əcaba, görüşmək istəmirdisə,
Mənim ürəyimdə niyə yer aldı?

**22**
Nə fərqi dünyanın harasındayam?
Bir dəli sevginin sevdasındayam.
Mənim ünvanımı axtaran olsa,
Dünyanı sevənlər sırasındayam.

**23**
Əylədim nəfsimi, çəkdim yolundan,
Qovdum tamahımı dəydim dalından.
Yolun yarısından qayıtdım geri,
Dönüb uzaqlaşdım dünya malından.

**24**
Ömrümün yarısı ötüb gedibdir,
Həyat nə öyrədib, könlüm edibdir.
Öyrənə bilmədim fəqət heç yerdən,
Mənə qocalmağı kim öyrədibdir.

**25**
Torpaq itirmişəm, aranlı-dağlı,
Qalıb neçə yurdum viran, dağılı.
Bir vaxt öz əlimlə itirdiyimi,
Gəzib axrarıram əli çıraqlı.

**26**
O adam yalandan yaman and içir,
Bu adam yuxardan,hündürdən biçir.
Görəndə onlara aldananları,
Mənim ürəyimdən ağlamaq keçir.

**27**
Oxu kainatı, öyrən dərindən,
Gör ki, ulduzlar da axır yerindən.
Fəlakət baş verər, yol azıb biri,
Keçsə dünyamızın həndəvərindən.

**28**
Ayağım yerlərdə, əlim göylərdə,
Allah əkdiyimi bəlkə göyərdə.
Tanrım inciyibmiş əkdiklərimdən,
Məni eşitməyir heç mələklər də.

**29**
Qaçıb dərd əlindən dağlara qalxdım,
Dönüb dağ başından dərdimə baxdım.
Özgələr adımı bəxtəvər qoydu,
Özüm öz içimi yandırıb-yaxdım.

**30**
Bu dünya əvvəldən belə deyildi,
Nəhəng, azmanların belin əyirdi.
İşə bax, nəhənglər məhv edən dünya,
Bəşərin önündə sınıb əyildi

**31**
Fələk nə kələkdir göstərir belə;
-Yolumu küləklə kəsdirir belə?
Gücü çatmayacaq həyat eşqimə,
Nahaq küləkləri əsdirir belə.

**32**
Dünya bir gəmidir, heyəti yoxdur,
Qorxunc, vahiməli heybəti yoxdur.
Üzür kainatın sonsuzluğunda,
Göylərdən ayrılmaq niyyəti yoxdur.

**33**
Çoxdur bu dünyanın sirri, hikməti,
Odur insanların bəxti, qisməti.
Bəxtdən ayrı düşsək, qismətdən qaçsaq,
Şiddətli olacaq bir gün töhməti.

**34**
Məni məhəbbətlə doyduran gözəl,
Məst edib könlümü uyduran gözəl.
Bilməz məhəbbətdə gözəllik nədir,
Taxma kipriklərlə göz vuran gözəl.

**35**
Hərdən ürəyimdən gör nələr keçir,
Çoxdan unutduğum köhnələr keçir.
Yatmağa qorxuram, yuxularımdan,
Qorxulu röyalar,kölgələr keçir.

**36**
Bir sevda köç salıb yenə başımda,
Eşqin süfrəsini açır qarşımda.
Mənim bu sevdadan gözüm su içmir,
Mənə eşq oxuyur ahıl yaşımda.

Ədalət 2019.- 26 noyabr.- S.7.